# AMNESTY INTERNATIONAL
# PUBLIC STATEMENT

AI Index: EUR 55/002/2013
22 January 2013

## Azərbaycan: Amnesty International Eynulla Fətullayevlə əməkdaşlığı bitirir

Azərbaycanlı jurnalist və keçmiş vicdan məhbusu Eynulla Fətullayev, Amnesty İnternationala, təşkilatın iştirakini xahiş etdiyi bir layihənin maliyyə mənbəyi barədə yanlış məlumat verdiyinə görə, Amnesty İnternational onunla əməkdaşlığı bitirməyə məcbur olduğu üçün təəssüflənir.

2007-ci ildə diffamasiya ittihami ilə həbs ediləndən sonra, Amnesty İnternational Eynulla Fətullayevin azad edilməsi üçün 4 il kampaniya etmişdi. Onun başına gələnlər, Azərbaycanda tənqidçi jurnalistlərə, bloggerlərə və fəallara qarşı uzunmüddətli və bu günədək davam edən hücumun bir misalıdır.

2012-ci ilin dekabr ayında, Eynulla Fətullayev Alman Marşal Fondunun Qara Dəniz Fondu tərəfindən maliyyələşdiyini iddia etdiyi və Almaniyada insan haqqları pozuntularını araşdırmaq üçün təsis edilmiş bir layihədə iştirak etməyə, Amnesty İnternationalın sözçüsü daxil olmaqla, bir neçə insan haqqları ekspertlərini dəvət etdi.

O, bu ekspertləri, hesabatının Brüsseldəki təqdimatında çıxış etmək üçün, bütün xərcləri ödənilmiş səfərdə ona qoşulmağa dəvət etdi.

Qara Dəniz Fondunun, Qara Dəniz ətrafındaki ölkələr üçün təsis edildiyi halda, bu ölkələr əvəzinə Almaniya üzrə bir layihə üçün onlarla min Avro xərcləməsinə ehtimal az olduğuna görə, Amnesty International  tədbirə spiker göndərməkdən imtina etdi, və fonda müraciət etdi.

Buna baxmayaraq, Eynulla Fətullayev Amnesty İnternationalın təşkilatının spikerinin güya iştirak edəcəyi barədə gündəliyi yaymağa başladı. O, həmçinin Amnesty Internationalın iştirakını iddia edərək, tədbirə dəstək qazanmağa çalışdı.

Bu zamanda, Qara Dəniz Fondu, bu layihədə iştirak etmədiyini təsdiqlədi. Davamlı müraciətlərimizə baxmayaraq, Eynulla Fətullayev əsl maliyyə mənbəyini açıqlamaqdan imtina etmişdir. Bu səbəbdən, Amnesty İnternational Eynulla Fətullayev və onun təşkilatı "İnsan Hüquqları Uğrunda" Azərbaycan İctimai Birliyi ilə hər hansı əməkdaşlığı dayandırmaq qərarına gəlmişdir. Eynulla Fətullayəv, fəaliyyətində bizi dəstəkçi və ya tərəfdaş təşkilat kimi təqdim edən hər hansı iddialara əhəmiyyət verilməməlidir.

Eynulla Fətullayev, Amnesty İnternationalı, onun layihəsinin Almaniyada insan haqqlarının vəziyyəti barədə tənqidlərə qarşı olduğunu iddia edən bəyanat yaymışdır. Bu həqiqətəə uyğun deyildir. Amnesty İnternational Almaniyada insan haqqları pozuntuları barədə bir sıra hesabatlar nəşr etmişdir. Həqiqətən də, Amnesty İnternational, Almaniya ofisi nümayəndəsinin Fətullayevin təşkilatına verdiyi müsahibədəki tənqidlərinin arxasında dayanır.

Amnesty İnternational onun Azərbaycanda aşkar edilmiş insan haqqları pozuntularını Almaniyada eyni dərəcədə aşkar edildiyini təbliğ etməkdə yanıldığına inansada, təşkilat onun Almaniya və ya hər hansı digər ölkə barədə fikirlərini ifadə etmək hüququna tamamilə hörmət edir.

Amnesty İnternatonal bu məsələni, Azərbaycanın Avropa Şurası Parlament Assambleyasında (AŞPA) bu həftə müzakirə edilən insan haqqları pozuntularından arzuedilməz yayındırma hesab edir. Çərşənbə günü AŞPA-da, Azərbaycan hökümətinin Eynulla Fətullayəvə qarşı

istifadə etdiyi, və bu günədək tənqidçi səsləri susduran təyziq, hücum və həbs siyasətinə son qoymağa çağıran iki qətnamə üzrə səsvermə aparılacaq.

End/